Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası 2019-№2 Серия общественно-политических наук

**Babanlı Yusif Məmməd oğlu**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
*yusif.babanlı@sport.edu.az*

# AZƏRBAYCANDA ATLETİKANIN İNKİŞAF TARİXİ (1920-1960)

***Açar sözlər***: *idman, atletika, qələbə, idmanda inkişaf, müvəffəqiyyət, yarış, spartakiada, Olimpia oyunları, idman klubları*
***Ключевые слова***: *спорт, атлетика, победа, развитие в спорте, успех, гонки, спартакиада, Олимпийские игры, спортивные клубы*
***Keywords***: *sports, athletics, victory, development in sports, success, racing, sports day,Olympic Games, sports clubs*

Azərbaycanda atletikanın təşəkkülü 20-ci əsrin əvvəllərindən başlamışdır.1920-ci ildən sonra Bakıda və ətraf qəsəbələrdə atletika bölmələri fəaliyyət göstərməyə başlayır. Bakıda və ətraf qəsəbələrdə atletika bölmələri fəaliyyət göstərməyə başlayır. Bakıda ilk atletika yarışları 1922-ci ildə keçirilmişdir. Azərbaycanda Atletika Federasiyası 1923-cü ildə yaranmışdır. Bu funksiyanı 1923-cü ildə Azərbaycanda yaranan Bədən Tərbiyəsi və İdman Ali Şurası yerinə yetirmişdir. Bu şuranın fəaliyyəti nəticəsində 1923-cü ilin sonu, 1924-cü ilin əvvəllərində Azərbaycanın bölgələrində - Lənkəran, Quba, Zaqatala, Gəncədə atletika növləri ilə məşğul olmağa başladılar.

1924-cü ilin sonuna yaxın respublikada 50-dən çox bölmələrdə 4500 adam idmanla məşğul olurdu. 1925-ci ildə ilk dəfə bədən tərbiyəsi bayramı keçirildi. Həmin ilin sonunda ilk Bakı Olimpiadası keçirilmişdir. 1925-ci il noyabr ayının 6-7-də şəhər stadionunda atletika üzrə Həmkarlar İttifaqının idmançılarının yarışı keçirilmişdir. Yarışlar beşnövçülük üzrə keçirilmişdir. 1925-ci ilin sonunda bir neçə növlərdə yeni respublika rekordları müəyyən edilmişdir. 50 metr məsafəyə qaçışda Dubrovskiy 5.06.8 san; 60 m Tarasov 9.0 san; qadınlardan 800 metr, qorbunova 3.10.6 san. 1925-ci ildə Azərbaycan atletləri ilk dəfə Moskvada Ümumittifaq Mərkəzi Həmkarlar Şurasının bədən təbiyəsi bayramında iştirak etdilər.

1928-ci ildə keçirilmiş birinci Ümumittifaq spartakiadası ölkəmizin idman tarixində böyük hadisə olmuşdur. Həmin sapartakiada zamanı dünya idman tari-

xində misili görünməmiş yarışlar keçirilmişdir. Birinci Ümumittifaq spartakiadasının proqramına yüngül atletikaidman növüdə daxil edilmişdir.

1928-ci ildə bütün ölkə birinci Ümumittifaq spartakiadasınıa hazırlaşırdı. Azərbaycan yüngül atletləri də kənarda qalmadılar. Bu mötəbər yarışlardan əvvəl Azərbaycan, sonra isə Zaqafqaziya spartakiadaları keçirildi. O vaxtlar üçün bunlar böyük idman bayramları idi. Yenə də, demək olar, bütün növlərdə respublika rekortdları müəyyən edildi. Onlardan 11-i Zaqafqaziya rekordlarından yüksək naliyyətlər idi. Y.Samadurkov, A.Hacınıski, K.Kırlov, Y.Makarov, A.Şamatov, Medvedeva və başqaları rekordçu oldular. Zaqafqaziya yarışlarında ümumkomanda hesabında birinci yeri Azərbaycan yüngül atletləri tutdular.

Onlar Ümumittifaq spartakiadasında da uğurla çıxış etdilər. ZSFSR yığma komandasının əsasını məhz Bakı atletləri təşkil etdilər. Bir neçə idmançımız Moskvada yüksək nəticə göstərdi, H. Yurasov sədləri dəf etməklə 110 m məsafəyə qaçışda üçüncü yeri tutdu (17,6 san.), Xaritonova və H.Soldatov ikinci oldular. Xaritonova top tullamaqda, Soldatov isə lövhə tullamaqda fərqləndilər.

Bakıda ilk normativlər 1928-ci il yanvarın 5-də təsdiq olundu. Həmin normativlərdən bəzilərini diqqətinizə çatdırırıq: 100 metr məsafəyə qaçışda kişlər üçün I dərəcə normativi-12,5 san; qaçaraq uzununa tullanma-5,50 m; 3 km məsafəyə idman yerişi-20 dəq. Qadınlar: 60 m məsafəyə qaçış-9,2 san; yadro itələmək-10 m və s. Bahar krosları, qaçışlar, estafetlər yüngül atletika idmanının geniş yayılmasına kömək edirdi. Bu tədbirlər zamanı gənclərdə yüngül atletika məşqlərinə maraq aşılandı. Bakıda şəhər üzrə ilk estafet 1928-ci ildə Bakı-Sabunçu marşurutu üzrə keçirildi. Estafetdə 20 komanda iştirak edirdi. Onların hər biri 20 nəfərdən ibarət idi. Yarışların qalibi dəmiryolçu yüngül atletlər oldular. Həmin illərdə Bakıda hər il "Neft və pambıq uğurunda" estafeti keçirildi. Bu startlarda yüzlərlə, bəzən isə minlərlə bədən tərbiyəçisi iştirak edirdi.

1929-cu ildə respublikanın yüngül atletika bölmələrində 25 mindən artıq adam məşğul olurdu. Müntəzəm surətdə Bakı bədən tərbiyəsi şurasının yarışları keçirilirdi. Startlarda respublikanın yüngül atletləri iştirak edirdilər. Onların arasında Gəncə, Zaqatala, Nuxa idmançıaları daha yaxşı nəticə göstərdilər. 1930-cu ildə Bakı-Vladiqafqa və Donbas-Bakı yüngül atletlərinin görüşləri keçirildi. Bu yarışlarda bakılılar müvəffəqiyyət qazandılar. Bakıda keçirilən yüngül atletika üzrə bütün yarışalarda dağ-mədən işçilərinin kollektivi, İ.Fioletov adına klubun Qara şəhər klubunun, Bayıl dərnəyinin və "Dinamo" cəmiyyətinin yüngül atletləri daha yaxşı çıxış edirdilər. Azərbaycan yüngül arletikasının liderləri Zaqafqaziya rekordçuları olurdular. Bunlar A.Şepelev, Y.Antonov, Y.Rusanov, H.Peterson, A.Fomkva, R.Voroviç, H.Nikolayeva və başqaları.

1930-cu ilin oktyabrında Bakı Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu (indiki ADBTİA) açıldı. İnstitutu bitirən yüngül atletika mütəxəssisləri respublikada yüngül atletika idmanının sonrakı inkişafında həlledici rol oynadılar. Qabaqcıl yüngül

atletlər institutun tələbələri, daha təcrübəli idmançılar A.Şepelev, Y.Makarov və başqaları isə yüngül atletika kkafedrasının ilk müəllimləri oldular.

1931-1932-ci illərdə yüngül atletika üzrə çoxlu yarış keçirildi. Həmin illərdə respublika orqanalrının qəbul etdikləri müxtəlif qərarlar idmanın bu növünün dahada inkişaf etməsi üçün şərait yaratdı.

1932-ci ildə respublikanın növbəti çempionatında bir sıra yüksək nəticələr göstərildi və onlar onlar Azərbaycan rekordçuları oldu. A.Şepelev 1,500 m məsafəni 4.39,9 saniyəyə qaçdı, A.Hacıniski 5000 m məsafəyə qaçışda 18.20,0 san. nəticə göstərdi, H.Soldatov qumbaranı 66,25 m məsafəyə tulladı. Y.Makarov 6,09 metr uzununa tullandı. Lakın idman nailiyyətlərinin xeyli dərəcədə artmasına baxmayaraq atletlərimiz texniki cəhətdən mürəkkəb növlərdə Ümumittifaq nəticələrdən çox geri qaldılar.

1933-cü ilin sentyabrında Bakıda ilk mötəbər yarışlar "Dinamo" cəmiyyəti Mərkəzi Şurasının birinciliyi keçirildi. Turnirdə ölkənin ən güclü 400 atleti iştirak edirdi. Azərbaycan dinamoçuları 3-cü yeri tutdular. Idmançılarımızın bir çoxu Zaqafqaziya rekordları müəyyən etdi. Qadınların yarışında H.Petrson 100 m məsafəni 12,9 saniyəyə qaçdı, 4X100 m məsafəyə estafetdə isə M.Urbanoviç, D.Cdaneşkina, S.Vasilyeva və H.Peterson 54,4 san. Nəticə göstərdilər. Bundan başqa, M.Urbanoviç qumbara tullamaqda, yadro itələməkdə ən güclü oldu, hündürlüyə tullanmaqda rekord müəyyən etdi (138,5 m).

1934-cü ildə II Ümumrespublika spartakiadası keçirildi. Bundan əvvəl bədən tərbiyəsi kollektivlərində, rayonlarda, şəhərlərdə kütləvi spartakiadalar və yarışlar təşkil olunmuşdu. Spartakiadanın gedişində Zaqafqaziyanın altı və respublikanın 19 rekordu müəyyən edildi. Spartakiadaya hazırlıq dövründə təkcə respublikanın şəhərlərində deyil, həm də kəndlərdə bədən tərbiyəsi idman işləri xeyli canlandı. Həmin dövrdə kütləvilikdə artdı. Aərbaycan məktəblilərinin 1934-cü ildə keçirilmiş I spartakiadası da bunu əyani şəkildə nümayiş etdirdi. Spartakiadada respublikanın 15 rayonunun məktəbliləri yüngül atletika və atıcılıqda yarışdılar. Məktəblilərin II spartakiadasının proqramına isə idmanın 6 növü üzrə yarışlar daxil edildi. Əgər bu spartakiadada 21 rayonun nümayəndələri qüvvələrini sınadılarsa, növbəti spartakiadada yarışlarda mübarizə aparan komandaların sayı 25-ə çatdı. Ümumazərbaycan kolxoz spartakiadaları da müntəzəm surətdə keçirilirdi. Onlar kənd idmanının inkişafına güclü təkan verdi.

Yüngül atletlər S.Qasımova, Q.Qaneker, O.Muradov, N.Qurbanov, Y.Rusanov, N.Qarayev və başqaları Lənkəran, Astara, Salyan, Naxçıvan və Zaqatala Bakının istehsalat kollektivlərindən böyük idmana gəldilər.

Həmin ilin əsas hadisəsi məhşur idmançımız Qalina Qanakerin SSRİ çempionatında iştirakı idi. Bu Ümumittifaq meydanda onun ilk startı idi. Atletimiz sədləri dəf etməklə 80 m məsafəyə qaçışda, hündürlüyə və uzununa tullanmaqda, alət tullanmanın bəzi növlərində uğurla çıxış etdi. Q.Qaneker, demək olar ki, 20 il ərzində respublika, SSRİ çempionu və rekordçusu, beynəlxalq yarışların, Avropa

çempionatınınqalibi və mükafatçısı olmuşdur. O, X.Mədətovla birlikdə Helsinkiyə, Olimpiya oyunlarına (1952-ci il) getmişdi.

Azərbaycan yüngül atletləri ilk SSRİ rekordunu 1934-cü il iyulun 25-də müəyyən etdilər. Həmin rekordun sahibi Q.Qaneker oldu. O, sədləri dəf etməklə 80 m məsafəyə qaçışda 13,5 san. nəticə göstərdi.

Zaqafqaziyanın yüngül atletika birinciliklərindən ən mötəbəri 1935-ci il birinciliyi oldu. Bu yarışlarda Qafqazın 120-dən çox atleti işdirak etdi. İdmançılarımız Zaqafqaziyanın 28 rekordunu müəyyən etdilər. Respublikamızın kollektivi birinci yeri tutdu. 1936-cı ildə Azərbaycanda Həmkarlar İttifaqlarının "Neftçi", "İaşəçi", "Qırmızı bayraq", "Ehtiyat əmək qüvvələri", "sprint" cəmiyyətləri yaradıldı. Elə həmin il Zaqafqaziyanın ali məktəbləri arasında yüngül atletika üzrə birinci şempionatı keçirildi. İdmançılarımız bu görüşdə uğurla çıxış etdilər. Sprinter K.Krılov SSRİ çempionatında 100 m məsafəyə qaçmaqda respublika və Zaqafqaziya rekordu müəyyən etdi. Ehtiyat qüvvə hazırlığına böyük diqqət yaradılmağa başlandı. Bu məqsədlə 1937-ci ilin iyul ayında Ümumazərbaycan uşaq spartakiadası keçirildi. Onun proqramına yüngül atletika da daxil edilmişdi. Müharibədən əvvəl Azərbaycanın sonuncu çempionatı 1939-cu ilin oktyabrında keçirildi. "Neftçi", "Dinamo", "Sprint", cəmiyyətlərinin idmançıları, ADBTİA –nın tələbələri və başqaları komanda mübarizəsinə qoşuldular. Bu yarışlar bir sıra gənc və bacarıqlı idmançıları aşkara çıxardı. Bir neçə respublika rekordu müəyyən edildi. Həmin il Bakı yüngül atletləri Gürcüsanın açıq birinciliyində iştirak etdilər. Onlar bir sıra yüksək nəticələr göstərdilər (V.Simakov, İ.İlev, M.Paşına). Bundan başqa, 1939-cu ildə təkcə Bakıda deyil, həm də Azərbaycanın rayonlarında bir neçə gənc güngül atlet yetişdi. Y.Rusanova (hündürlüyə tullanma) T.Dşetraşviliyə (üçnövçülük) və M.Urbanoviçə (üçnövçüül və beşnövçülük) isə idman ustası adı verildi.

1949-cu ildə Popkov İsay Bakı şəhərində keçirilən beynəlxalq yarışda dünya rekordunu (15 km. 1.08.25.03), 1954-cü ildə Stanislav Nenaşyev "şəkic atma" üzrə Bakı şəhərində keçirilən beynəlxalq yarışda dünya və SSRİ rekordunu (64,05 m), qadınlar arasında ilk azərbaycanlı Ziba Ələsgərova 1959-cu ildə dünya rekordunu (4x200), Sereda Valeriy 1984-cü ildə hündürlüyə tullanmada (2m.37sm) Avropa və SSRİ rekordunu müəyyən etmişlər.

Atletikanın uzununa tullanma növü üzrə idman ustası Xandadaş Mədətov SSRİ çempionu (1950, 7m. 15sm) və ümumittifaq rekordçusu (1952, 7m. 50sm) olmuşdur. O, XV Yay Olimpiya Oyunlarına (1952, Helsinki) getmiş, zədə aldığına görə iştirak etməmişdir.

Respublikamızın atletika üzrə məşqçiləri 1957-ci ildə çoxlu idman ustası və 50 nəfərdən artıq yüksək dərəcəli idmançı hazırlanmışdır. Bacarıqlı atletlərin hazırlanmasında SSRİ-nin əməkdar məşqçisi Ə.Səfərovun, məşqiçilərdən Ü.Qasımovun, A.Şepelevin və başqalarının hazırlanması işi də son illərdə yaxşılaşmışdır. 1957-ci ilin statistik məlumatına əsasən respublikamızda yüngül atletika üzrə 5 ümumittifaq və 37 respublika dərəcəli idman hakimi vardı.

Ümumiyyətlə azərbaycanda atletikanın inkişfı bütün illərdə, istər ölkə SSRİ tərkibində, istərsədə müstəqillik qazandıqdan sonra inkişafda olmuşdur. Azərbaycan idmançıları öz gücü, əzmkarlığı və iradəsi ilə hər zaman öz sözünü demişdir. Beynəlxalq arenalarda, mötəbər yarışlarda, Olimpia yarışlarında bayrağımızı qürurla dalğalandıran atletlərimiz Azərbaycan idmanının inkişafı üçün hər zaman mücadilə aparmışlar və qələbələrə olmuşlar.

## ƏDƏBİYYAT


1. D.Quliyev, Y.Babanlı Azərbaycanda atletikanın inkişaf tarixi (1920-2010). "Araz nəşriyyatı" Bakı, 2010, 120 səh.
2. D.Quliyev Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi. Bakı, 2004, 224 səh.
3. Z.Hüseynov SSRİ Xalqlarının və Azərbaycan SSRİ-nin spartakiadaları. "Qızıl şərq" mətbəəsi. Bakı, 1956. 31 səh.
4. M.Məmmədov İdman sağlamlıqdır. "Gənclik". Bakı, 1975, 52 səh.



**Бабанлы Юсуф Мамед оглы**


**История развития атлетики в Азербайджане (1920-1960)**

**РЕЗЮМЕ**


В статье отражена история развития атлетики в Азербайджане в 1920-1960-годах. Также говорится о высоких достижениях наших атлетов на международных соревнованиях в составе сборной команды бывшего СССР. В статье отражены заслуги спортивных клубов обществ в развитии атлетики в те годы.



**Babanli Yusuf Memmed**


**The history of the development of athletics in Azerbaijan (1920-1960)**

**SUMMARY**


The article reflects the history of the development of athletics in Azerbaijan in 1920-1960. It also speaks of all the achievements of our athletes in international competitions as part of the team of the former USSR. The article reflects the merits of sports clubs of societies in the development of athletics in those years.



*Rəyçi: professor Akif Abbasov*